*İmadəddin Nəsimi - 650*

# Bənzərsiz poeziyası ilə özünə əbədiyyət qazanmış şair, fəlsəfi şeirin banisi

**Azərbaycan ədəbiyyatının dahi nümayəndəsi, görkəmli şair və mütəfəkkir İmadəddin Nəsimi yaradıcılığı zəngin və çox sahəlidir. Şairi bizdən uzaqlaşdıran 650 illik zaman onun sözünün qüdrəti qarşısında acizdir.**





Bu günlərdə Bakının Nərimanov rayonundakı 39 nömrəli məktəbdə Azərbaycan əruzunun əzəmətli nümayəndələrindən biri, fəlsəfi şeirin banisi İmadəddin Nəsiminin 650 illik yubileyi ilə bağlı geniş və yaddaqalan mərasim keçirildi. Yeni təmirdən çıxmış, dünya standartlarına cavab verən bu təhsil ocağında əsl bayram təntənəsi duyulurdu. Tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, məktəb pedaqoji kollektivinin üzvləri, şagirdlər yüksək əhval-ruhiyyə ilə iştirak edirdilər.

Yubiley tədbirini giriş sözü ilə açan məktəbin direktoru Tahirə Şükürova vurğuladı ki, bir çox ədəbi simalar kimi, Nəsiminin də taleyinə gur işığın düşməsi ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin respublikaya ilk rəhbərliyi zamanı, 1973-cü ildə keçirilən 600 illik yubileyi zəminində şairin nüfuzu layiq olduğu həddə yüksəldi.

Nəsiminin əsərlərini hər dəfə oxuduqca, cağdaş oxucunu ovsunlayan poetik fikirlər onu müasirimizə çevirir, misraların arasından boylanan müdrik və nurlu siması gözlərimiz önündə canlanır, qəlbdən süzülüb gələn söz və ifadələr ruhumuzu oxşayır, beləliklə Nəsimi yaşayır, yaşıdımız olaraq bizimlə danışır...

Milli ruhla bəşəri ruhu özündə birləşdirən sənət hər bir dövrdə, hər bir formasiyada aktual olur, vaxtdan-vaxta ictimai çəkisini artırır. Möhtərəm Prezidentimiz İlham Əliyevin 2019-cu ilin "Nəsimi ili" elan etməsi barədə imzaladığı sərəncamda aşağıdakı hikmətli deyim şairə ünvanlaraq onun 650 illiyini keçirilməsini zəruriləşdirən səbəb kimi göstərilmişdir: "Azərbaycan xalqının çoxəsrlik ənənlərə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsimini zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir...". İmzaladığı qərarlarda həmişə dövlətimizin mənafeyini önə çəkən ölkə başçımızın sözlərindən aydın görünür ki, bu yubiley təkcə görkəmli qələm sahibinə ehtiram naminə gündəmə gətirilməyib, eyni zamanda, praktiki məqsəd daşıyır.

Tahirə Şükürova sözünə davam edərək bildirdi ki, sözün musiqi fonunda, şirin səs avazında daha yaxşı mənimsədildiyini nəzərə alsaq, bu işin keyfiyyəti həmin incəsənət sahəsində fəallıqdan da çox asılıdır. Təqdirə layiqdir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın şəxsi təşəbbüsü, Heydər Əliyev Fondunun dəstəyi sayəsində müntəzəm olaraq keçirilən muğam müsabiqələrində Nəsimi poeziyasına geniş yer verilir. Nəsiminin qəzəlləri o qədər rəngarəngdir ki, aralarında muğamlarımızın hər birinə aid seçim aparmaq olur.

Lirik şeirlərində kamil insanı vəsf edən şair didaktik ruhlu qəzəllərində də öz əqidəsinə sadiq qalır. Ayrı-ayrı qəzəllərində, eləcə də beyt və təkmisralarda əsl insan olmağın yollarını göstərir, oxucusunu yüksək milli dəyərlərimiz əsasında tərbiyələndirməyə çalışır.

İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbirdə şagirdlərin söylədikləri şeir parçaları, oxuduqları mahnılar, ifa etdikləri rəqslər, səhnəciklər mərasimə qatılan insanlarda xoş ovqat yaratdı.

Yubiley tədbirində çıxış edən məktəbin direktor müavini Könül Rəhimova vurğuladı ki, İmadəddin Nəsimi yaradıcılığı ilə bağlı yaddaqalan, genişproqramlı tədbirin hazırlanması məktəbin dil-ədəbiyyat müəllimlərindən Dilarə Cəfərova və Gülarə Zeynalovanın adı ilə bağlıdır.

Yubiley mərasimində iştirak edən Nərimanov rayon Gənclər və İdman İdarəsinin rəisi Nəcəf Novruzov çıxış edərək mütəmadi olaraq məktəbdə belə tədbirlərin keçirilməsini qəlbən alqışladı.

**Qədir ASLAN,**
**"Respublika".**

15 saylı Bakı Peşə Liseyi mühafizə xidmətlərinin satın alınması üzrə
KOD: 210005
VÖEN: 1401555071
rin açıldığı tarixdən sonra ən azı 60 ba
5. Azərbaycan Respublikasında yer